# HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 07 (2014) 20 fevral 2026-ci il, Həftəlik ictimai-siyasi qəzet Qiyməti : 50 qəpik


## Gənc nəslə örnək olan QƏHRƏMAN

### ŞƏHİD LEYTENANT İBRAHİM ƏLİYEVİN DOĞUM GÜNÜ EHTİRAMLA QEYD OLUNUB

**Kəngərli rayonunun Qabıllı kəndində Vətən müharibəsində Şəhidlik zirvəsinə ucalmış leytenant İbrahim Mustafa oğlu Əliyevin doğum günü dərin ehtiram və sonsuz minnətdarlıq hissi ilə anılıb. Doğma kəndin səssizliyini bu dəfə bir igidin xatirəsi, bir ömrün ucalığı, bir Vətən sevdasının əzəməti bürümüşdü.**

Şəhidin müqəddəs məzarı önündə keçirilən anım mərasimində rayon ictimaiyyətinin nümayəndələri, şəhid anaları və ataları, Vətən müharibəsi iştirakçıları, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər və kənd sakinləri iştirak ediblər. Qabıllı kəndi bu gün bir daha öz qəhrəman oğlunun adını qürurla andı.

Tədbir Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən bütün şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Dini İcmanın sədri tərəfindən Qurani-Kərimdən ayələr oxunub, şəhidlərin pak ruhuna dualar edilib.

Mərasimdə çıxış edən Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov şəhid leytenant İbrahim Əliyevin şərəfli ömür yolundan, Vətən müharibəsində göstərdiyi şücaətdən bəhs edib. Bildirilib ki, ümummilli lider Heydər Əliyevin əziz xatirəsi xalqımız üçün nə qədər müqəddəsdirsə, torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin də adı hər zaman uca tutulacaq, onların xatirəsi qəlblərdə əbədi yaşayacaqdır.

Çıxışında dövlət tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıya toxunan icra başçısı Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə, müharibə iştirakçılarına göstərdiyi yüksək həssaslığı xüsusi vurğulayıb, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan tarixi Qələbənin Azərbaycan dövlətçiliyi üçün müstəsna əhəmiyyətini qeyd edib.

Daha sonra çıxış edən şəhid atası, "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri Mayis Gülməmmədov, şəhid anası və Milli Ordunun zabiti bildiriblər ki, şəhidlərimizin qanı yerdə qalmayıb, onların fədakarlığı gələcək nəsillər üçün əbədi örnəkdir. Məktəblilərin səsləndirdiyi vətənpərvərlik ruhlu şeirlər isə mərasimə duyğusal çalar qatıb.

Sonda tədbir iştirakçıları Qabıllı kəndindəki şəhid məzarlarını ziyarət edərək üzərinə tər qərənfillər düzüb, bütün şəhidlərimizin ruhuna dualar oxuyublar. Anım mərasimi şəhid ailələri ilə birlikdə xatirə fotosunun çəkilməsi ilə başa çatıb.

Qeyd edək ki, Əliyev İbrahim Mustafa oğlu 17 fevral 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qabıllı kəndində dünyaya göz açıb. 2014-cü ildə C.Naxçıvanski adına hərbi məktəbi, 2018-ci ildə isə Bakıda Ali Hərbi Məktəbi bitirib. Həmin ildən Goranboy rayonunda yerləşən N saylı hərbi hissədə tağım komandiri kimi xidmətə başlayıb. Xidmətinə sevgi və məsuliyyətlə yanaşan İbrahim Türkiyədə - Ankarada "Kara Kuvvetleri İstihbarat Okulu"nda təhsil alaraq peşəkarlığını daha da artırıb. Vətənə qayıtdıqdan sonra bölük komandiri vəzifəsində xidmətini davam etdirib, xidmət illərində "təşəkkürnamə" və "tərifnamə"lərlə təltif olunub.




Üç bacının bir qardaşı, ailənin son beşiyi olan İbrahim nişanlı idi. O, Vətən müharibəsinin ilk günlərindən kəşfiyyatçı kimi ön cəbhəyə yollanıb. Silah yoldaşları ilə birlikdə Gülüstan dərəsi-İncəçay istiqamətində düşmən postunun ələ keçirilməsində iştirak edib. Mühasirəyə düşərək snayper atəşi nəticəsində sentyabrın 29-da başından ağır yaralanıb və şəhadətə yüksəlib.

Şəhidin nəşi dekabrın 5-də ailəsinə təhvil verilib, dekabrın 7-də doğma Qabıllı torpağında dəfn olunub. O, şəhadətindən öncə ailəsi, nişanlısı və doğmaları ilə vidalaşaraq sanki taleyini hiss etmişdi. Atasından halallıq istəmiş, anasına zəng etməməsini tapşırmış, qapıya bayraq asılmasını demişdi. Bu sözlər bir oğulun Vətənə yazdığı son məktub idi.

İbrahim Əliyev qısa ömrünə böyük bir Vətən sevgisi sığdırdı. Onun adı artıq yalnız bir ailənin yox, bütöv bir xalqın yaddaşına həkk olunub.

**Ruhu şad, məkanı cənnət olsun!**